# Azərbaycan Avropa İttifaqı ilə əməkdaşlıqda ən etibarlı tərəfdaş olduğunu sübuta yetirib

***Son illər ərzində Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələr müxtəlif aspektlərdə, məsələn, enerji, nəqliyyat, ətraf mühit, iqtisadi, ticarət, sosial sahələr, habelə kommunikasiya məsələləri istiqamətlərində dinamik inkişaf edib. Xüsusilə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rol ən yüksək səviyyəyə çatıb. Bütün bunlarla Azərbaycan özünün ən etibarlı tərəfdaş olduğunu sübuta yetirib. Bu, iyulun 18-də Azərbaycan Respublikasının Prezidenti və Avropa Komissiyasının Prezidenti tərəfindən imzalanan Anlaşma Memorandumunda da öz ifadəsini tapıb.***

> ***Bizim ikitərəfli münasibətlərimiz, regional inkişaf, postmüharibə vəziyyəti ilə bağlı baxışlarımız tamamilə üst-üstə düşür. Biz Avropa İttifaqına səylərin səfərbər olunması və postmüharibə vəziyyətinə töhfə verilməsi prosesində böyük tərəfdaşımız və dürüst vasitəçi kimi güvənirik. Bizim ənənəvi əməkdaşlıq sahələrimiz yaxşı məlumdur və biz böyük nailiyyət əldə etmişik. On il bundan əvvəl bu binada Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığa, enerji təhlükəsizliyinə dair Bəyannamə imzalandı. Bu, Cənub Qaz Dəhlizinin icrası istiqamətində çox mühüm addım idi.***
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***



Yeri gəlmişkən, Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen Bakıya səfəri zamanı mətbuata bəyanatında Avropa İttifaqı tərəfinin respublikamızın təbii qazının təchizat təhlükəsizliyinə və qiymətlərin sabitliyinə töhfə verdiyini bildirib. Eyni zamanda, adı çəkilən bəyanatdan əvvəl Azərbaycan Prezidenti ilə keçirilən görüşdə respublikamızla bu qurum arasında əməkdaşlığın çoxtərəfli platformalarda inkişafı perspektivləri və bu kontekstdə, Şərq Tərəfdaşlığı çərçivəsində əməkdaşlıq və Şərq Tərəfdaşlığının təkmilləşdirilməsi yolları müzakirə edilib.

Avropa İttifaqı öz fəaliyyətində Azərbaycanla bağlı regional məsələləri də daim diqqətdə saxlayıb. Bu xüsusda, son dövrlər Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesi ətrafında geniş müzakirə aparılıb. Avropa İttifaqı sülh sazişinin imzalanması, bununla əlaqədar Azərbaycanın sistemli və strukturlu yanaşmasının tərəfdarı olmasını yüksək dəyərləndirib. Qurum sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması, eyni zamanda, Azərbaycan ilə Ermənistan arasında etimad quruculuğu tədbirlərinin həyata keçirilməsi sahəsində Azərbaycanın ədalətli mövqeyini hər zaman dəstəkləyib.

Burada bir məqama da toxunmaq istərdik. Belə ki, iyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen mətbuata bəyanatlarla çıxış edərkən, dövlətimizin başçısı nitqində sözügedən qurumla respublikamız arasında əlaqələrin möhkəmlənməsinə Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində ikitərəfli qaydada fəaliyyəti də yüksək dəyərləndirib: "Biz Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində ikitərəfli qaydada işləyirik. Avropa İttifaqı Azərbaycan üçün əsas ticari tərəfdaşdır. Planlarımızın icrası əlbəttə ki, ticari dövriyyəni xalqlarımızın rifahı naminə artıracaq. Əminəm ki, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin böyük gələcəyi var və planlaşdırdığımız bütün məsələlərin həllinə nail olacağıq".

Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində görülən işlərdən danışarkən, qeyd edək ki, Avratlantik məkana inteqrasiya ilə bağlı fəal siyasət yürüdən Azərbaycanın bu istiqamətdə atdığı addımlar Qərbdə geniş təqdir olunur. Elə bunun nəticəsidir ki, müxtəlif beynəlxalq təşkilatlar, eləcə də ayrı-ayrı Avropa ölkələri tərəfindən respublikamızla əməkdaşlığın daha da genişləndirilməsi xarici siyasətlərinin prioritet istiqamətləri hesab edilir. Belə vəziyyətdən səmərəli yararlanan Azərbaycanın milli maraqları çərçivəsində atdığı addımlar ölkəmizin ümumilikdə Avratlantik məkana əlaqələrini möhkəmləndirir.

Şərq Tərəfdaşlığı Proqramı, eyni zamanda, Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın yeni sahələrinin inkişafına xüsusi maraq göstərir və adı çəkilən proqram buna əlverişli zəmin yaradır.

Şərq Tərəfdaşlığı Proqramı Azərbaycanın Avropaya inteqrasiyasında mühüm rol oynamaqla yanaşı, ölkəmizə iqtisadi, siyasi sferada da mühüm üstünlüklər vəd edir. Məlumat üçün bildirək ki, bu proqram 2008-ci ilin may ayında Avropa İttifaqının üzvləri olan Polşa və İsveç tərəfindən irəli sürülüb. Bu proqrama oxşar sənədi isə Avropa İttifaqı hələ 2004-cü ildə Polşa və Litva ilə imzalayıb. Sonradan bu dövlətlərin hər ikisi Avropa İttifaqına üzv seçilib. Bu mənada deyə bilərik ki, Şərq Tərəfdaşlığı Proqramı iştirakçı dövlətlərin perspektivdə Avropa İttifaqına üzvlüyünü sürətləndirmək və bu istiqamətdə əməli addımlar atmaq kimi qarşıya mühüm vəzifə qoyub.

Azərbaycanla Avropa İttifaqı arasında yüksək səviyyəli münasibətlər və əməkdaşlıq Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə münasibətlərində, qarşılıqlı səfərlər və yüksək səviyyəli dialoqda, sıx əməkdaşlığın real nəticələrində özünü aydın göstərir.

Yeri gəlmişkən, dövlətimizin başçısı ilə Avropa İttifaqı Şurasının Prezidenti arasında münasibətlərdən danışarkən, diqqəti bir neçə məqama yönəltmək istərdik. Belə ki, ötən il dekabrın 15-də Belçika Krallığının paytaxtı Brüsseldə keçirilən Avropa İttifaqının Şərq Tərəfdaşlığının VI Sammitində Prezident İlham Əliyev regional məsələləri daim gündəliyində saxladığına, bu proseslərə verdiyi töhfəyə və dəstəyə görə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelə təşəkkürünü bildirib. Bu xüsusda Şarl Mişelin təşəbbüsü ilə sammitdən bir gün əvvəl-dekabrın 14-də Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında davam edən müzakirələrin konstruktiv mühitdə keçdiyini, Avropa İttifaqı Şurasının Prezidentinin Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasına verdiyi töhfəni vurğulayıb. Həmçinin Şarl Mişelin təşəbbüsü ilə aparılan bu danışıqların çox praktiki olduğunu və təfsilatlı xarakter daşıdığını, burada Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması, sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat infrastrukturunun, xüsusilə də dəmir yolu xəttinin çəkilməsi kimi məsələlərin müzakirə olunduğunu, nəticə etibarilə səmərəli və praqmatik keçdiyini diqqətə çatdırıb.

Beləliklə, dövlətimizin başçısının görüşləri və apardığı danışıqlar nəticəsində postmüharibə dövründə yeni bir format – Brüssel sülh gündəliyi yaranıb. Bir daha xatırladaq ki, ilk üçtərəfli görüş Avropa İttifaqının Şərq Tərəfdaşlığının VI Sammitindən bir gün əvvəl–dekabrın 14-də keçirilib, bununla da Prezident İlham Əliyev və Şarl Mişel tərəfindən Brüsseldə sülh gündəliyinin əsası qoyulub. Bunun davamı olaraq tərəflər arasında intensiv təmaslar aparılıb, telefon danışıqları reallaşdırılıb.

Azərbaycan Prezidentinin bu il aprelin 6-da Brüsselə səfəri, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Ermənistan baş naziri Nikol Paşinyanla görüşləri və əldə olunmuş müsbət nəticələr də dövlətimizin başçısının sözügedən sülh sazişinin imzalanması istiqamətindəki yorulmaz fəaliyyətinin bariz ifadəsi, respublikamızın milli maraqlarının təmin olunması yönündə gerçəkləşdirdiyi ardıcıl və məqsədyönlü siyasətin məntiqi nəticəsidir.

Onu da qeyd edək ki, Azərbaycan regionda sülh tərəfdarı, iqtisadi güc mərkəzi, eyni zamanda, Cənubi Qafqazda beynəlxalq layihələrin təşəbbüskarı olan ölkə kimi tanındığından Avropa İttifaqı üçün vacib, etibarlı və perspektivli tərəfdaşdır. Bu amil respublikamızla münasibətlərin davamlı inkişafını şərtləndirir. Digər tərəfdən, İkinci Qarabağ müharibəsində Azərbaycanın parlaq qələbə əldə etməsi ilə geosiyasi reallıq yaranması adı çəkilən təşkilatla bu əməkdaşlığın dərinləşdirilməsi zərurətini qarşıya çıxarır.

Yeri gəlmişkən, hazırda təkcə Avropa İttifaqı deyil, həm də nüfuzlu ölkələr və digər beynəlxalq siyasi mərkəzlər Cənubi Qafqazda Azərbaycanın ədalətli zəfəri fonunda geosiyasi reallığı təqdir edir və Ermənistanla sülh sazişinin imzalanmasını önəmli məsələ kimi dəyərləndirir. Çünki bölgədə sülh və əmin-amanlığın bərqərar olması Azərbaycan və onun qonşularının mənafeyinə fayda gətirməklə bərabər, həm də bu coğrafiyada kommunikasiya bağlantılarının bərpası sayəsində region dövlətlərinin dünya iqtisadiyyatına inteqrasiyasını gerçəkləşdirir, son nəticədə isə xalqların sosial şəraitinin yaxşılaşmasına müsbət təsir göstərir. Əlbəttə, bu mənada Avropa İttifaqının rəsmi Bakının təklif və təşəbbüslərini yüksək dəyərləndirməsi və bunu dəstəkləməsi aydın başa düşülür.

Göründüyü kimi, Azərbaycanla Avropa İttifaqı arasında yüksək səviyyəli münasibətlər və əməkdaşlıq qurulub. Bu, Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə münasibətləri, qarşılıqlı səfərlər və yüksək səviyyəli dialoqda, sıx əməkdaşlığın real nəticələrində özünü aydın göstərir. Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin Azərbaycana səfəri, imzalanmış memorandum da ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu nümayiş etdirir.

Azərbaycanla Avropa İttifaqı arasında bütün bu səmərəli əməkdaşlıq münasibətləri dövlət başçımızın uzaqgörən, müdrik siyasətinin, ölkəmizin dövlət maraqlarını hər şeydən üstün tutmasının və milli mənafelərimizin müdafiəsini başlıca vəzifələrindən biri kimi diqqət mərkəzində saxlamasının məntiqi nəticəsidir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***